Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış namizəd Əkbərli İltizam Nizam oğlunun Mərkəzi Seçki Komissiyasına 10 noyabr 2015-ci il tarixli 155 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 13 noyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış namizəd Əkbərli İltizam Nizam oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 noyabr 2015-ci il tarixli 155 saylı yazılı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Müsavat Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış namizəd Əkbərli İltizam Nizam oğlu həmin seçki dairəsi dairə seçki komissiyasının 6 noyabr 2015-ci il tarixli 38/109 saylı qərarının ləğv edilməsini, seçki dairəsi üzrə səsvermənin nəticələrin etibarsız hesab edilməsini və səsvermə günü pozuntu törətmiş şəxslər barəsində müvafiq tədbir görülməsini xahiş etmişdir.

Araşdırma zamanı İ.N.Əkbərli şikayətini onunla əsaslandırmışdır ki, müşahidəçiləri ilə birgə səsvermə günü 79 saylı İmişli seçki dairəsinin əhatə etdiyi seçki məntəqələrində seçicilərin barmaqlarının ultrabənövşəyi lampalarla yoxlanılmamasını, xüsusi mürəkkəblə işarələnməməsini, seçici siyahısında adları olmayan şəxslərin səsvermədə iştirakı hallarının olmasını, eyni şəxslərin seçki məntəqəsində təkrar səs verdiyini, şəxsiyyət vəsiqəsini təqdim etməyən şəxslərə seçki bülleteninin verildiyini, səsvermə prosesinin düzgün təşkil olunmamasını, müşahidənin normal aparılmasının qeyri-mümkün olduğunu, səslərin hesablanması zamanı aşkarlıq prinsipinə riayət olunmamasını, 38 seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokolların surətlərinin onlara verilməməsini və digər pozuntuları müşahidə edərək müvafiq aktlar tərtib etmişlər.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış, əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüquqlarının olması izah edilmiş, onun tərəfindən əlavə olaraq səsvermə günü tərtib edildiyi ehtimal olunan aktların əsilləri, 3 seçki məntəqəsinə aid 36 səsvermə bülleteni, 2 ədəd video görüntülər olduğu iddia edilən disk və digər materiallar təqdim edilmişdir.

Seçki dairəsinin 1, 4, 7, 8, 9, 10, 12, 13, 14, 15, 16, 17, 18, 25, 26, 27, 28, 29, 31, 32, 38, 39, 41, 42 və 43 saylı seçki məntəqələri üzrə iddia edilən qanun pozuntularının araşdırılması nəticəsində aşağıdakılar müəyyən edilmişdir.

Belə ki, 1 saylı seçki məntəqəsində səsvermə günü müşahidə aparmış Z.V.Həsənova, E.M.Əsədov, Z.M.Həsənova, A.Y.Əmirova, 4 saylı seçki məntəqəsində müşahidə aparmış S.Z.Mehtiyev, F.Ə.Soltanov, M.A.Mirzəyev, 7 saylı seçki məntəqəsində müşahidə aparmış N.F.Mehtiyev, V.Şirinov, A.E.Vəliyev, 8 saylı seçki məntəqəsində müşahidə aparmış S.S.Səmədova, A.A.Kərimova, Y.M.Mirzəyeva, 9 saylı seçki məntəqəsində müşahidə aparmış Y.E.Şirinov, 10 saylı seçki məntəqəsində müşahidə aparmış N.Z.Miriyeva, 12 saylı seçki məntəqəsində müşahidə aparmış Q.Ş.Əbilov, 13 saylı seçki məntəqəsində müşahidə aparmış G.Z.Bədəlov, R.S.Həsənov, 14 saylı seçki məntəqəsində müşahidə aparmış A.H.Rzayev, Ü.Ş.Məmmədov, F.Y.Quliyev, 15 saylı seçki məntəqəsində müşahidə aparmış A.İ.İsrafilov, İ.N.Şükürov, Ə.S.Məhərrəmov, 16 saylı seçki məntəqəsində müşahidə aparmış O.N.Şəmmədov, 17 saylı seçki məntəqəsində müşahidə aparmış A.Ə.Qasımov, İ.H.Quliyev, A.Y.Əliyev, 18 saylı seçki məntəqəsində müşahidə aparmış İ.A.Nuriyev, E.F.Şahalıyev, 25 saylı seçki məntəqəsində müşahidə aparmış V.Ə.Surxayev, 26 saylı seçki məntəqəsində müşahidə aparmış A.C.Astanov, 27 saylı seçki məntəqəsində müşahidə aparmış E.B.Əzimov, 29 saylı seçki məntəqəsində müşahidə aparmış M.Ə.Əzimov, 31 saylı seçki məntəqisndə müşahidə aparmış Ə.A.Hüseynov, K.Y.Cəfərov, 32 saylı seçki məntəqəsində müşahidə aparmış M.Süleymanov, 39 saylı seçki məntəqisndə müşahidə aparmış İ.S.İmanov, E.A.Feyziyev, 41 saylı seçki məntəqisndə müşahidə aparmış T.Ş.Əzizov, T.O.Xəlilov, 42 saylı seçki məntəqisndə müşahidə aparmış Ş.K.Əliyev, 43 saylı seçki məntəqisndə müşahidə aparmış E.Y.Tağıyev və qeyd edilən məntəqə seçki komissiyalarında müxtəlif siyasi qüvvələri təmsil edən komissiya üzvləri tərtib etdikləri akt və izahatları ilə səsvermə və səslərin sayılması prosesinin seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq keçirildiyini, səsvermənin nəticələrinə dair protokolların Seçki Məcəlləsi ilə müəyyən edilən qaydada tərtib edildiyini və surətlərinin maraqlı seçki subyektlərinə verildiyini, müşahidə prosesinə müdaxilə hallarının olmadığını təsdiq etmişlər.

Müəyyən edilmişdir ki, səsvermə günü namizəd İ.N.Əkbərli və onun maraqlarını təmsil edən şəxslər tərəfindən seçki məntəqələrində baş verdiyi iddia edilən qanun pozuntusu ilə bağlı dairə seçki komissiyasına heç bir

müraciət daxil olmamışdır. Yuxarıda qeyd edilən seçki subyektlərinin səsvermə günü ilə bağlı təqdim etdikləri aktlar və izahatlar müraciətdə göstərilənlər təkzib olunur.

Araşdırma prosesində ərizəçi tərəfindən təqdim edilmiş aktlar və digər materiallar qiymənləndirilərkən müəyyən edilmişdir ki, bu və ya digər qanun pozuntusunun olmasını özündə ehtiva edən həmin aktlar və materiallar dairə seçki komissiyasına təqdim edilməsə də, onlar namizədin dairə seçki komissiyasına 4 noyabr 2015-ci ildə təqdim etdiyi ərizəsində müfəssəl şəkildə göstərildiyindən tam, hərtərəfli və obyektiv araşdırılmış və əsaslandırılmış qərar qəbul edilmişdir. Müraciətə əlavə edilməsi üçün təqdim edilmiş videodisklər Seçki Məcəlləsinin 41.1.3-cü maddəsinin tələbinin pozulması ilə əldə edildiyindən sübut qismində qəbul edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, 79 saylı İmişli seçki dairəsinin əhatə etdiyi 43 seçki məntəqəsində səsvermə günü müxtəlif siyasi partiyaları, "AZADLIQ-2015" siyasi partiyalar blokunu və namizədləri təmsil edən 553 müşahidəçi iştirak etmişdir.

Aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, ərizəçi tərəfindən araşdırmaya təqdim edilmiş 14 saylı seçki məntəqəsinə aid 24 ədəd səsvermə bülleteni həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələrinə dair yekun protokolunda korlanmış bülletenlər sırasında əks etdirilmişdir. 29 saylı seçki məntəqəsinə aid olduğu iddia edilən 10 ədəd səsvermə bülleteni kserosurətlər olduğundan, nə vaxt və harada əldə edilməsini müəyyən etmək mümkün olmadığından və seçki məntəqəsi üzrə səsvermənin nəticələrinə dair yekun protokolunda fərq müəyyən edilmədiyindən səsvermənin nəticələrinə təsir edən sübut kimi qiymətləndirilə bilməz.

Araşdırma prosesində deputatlığa namizəd İ.N.Əkbərli tərəfindən əlavə olaraq seçki dairəsinin 38 saylı seçki məntəqəsinə aid təqdim edilən 2 ədəd səsvermə bülleteni ilə bağlı araşdirma məqsədi ilə dairə seçki komissiyasından alınaraq baxış keçirilmiş 38 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinə dair protokolda çatışmamazlığı öz əksini tapmadığından həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir. Həmçinin, araşdirma zamanı 38 saylı seçki məntəqəsində seçki qanunvericiliyinin tələblərinin pozulması nəticəsində seçicilərin iradəsinin müəyyənləşdirilməsini qeyri-mümkün edən hallar aşkar edildiyindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə əsasən sikayətin qismən təmin edilməsi və həmin məntəqə üzrə səsvermənin nəticələrinin etibarsız sayılması üçün hüquqi əsaslar yaranmışdır.

Göstərilənlərə əsasən, İ.N.Əkbərlinin 10 noyabr 2015-ci il tarixli 155 saylı müraciəti qismən təmin edilməli, 38 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməli, qalan hissədə müraciət əsassız olduğundan təmin edilməməlidir. 79 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının namizəd tərəfindən mübahisələndirilən 6 noyabr 2015-ci il tarixli 38/109 saylı qərarı qismən, 38 saylı seçki məntəqəsi üzrə

səsvermənin nəticələrinə münasibətdə ləğv edilməli, qalan hissədə dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-cü, 28.4-cü, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Əkbərli İltizam Nizam oğlunun 10 noyabr 2015-ci il tarixli 155 saylı müraciəti qismən təmin edilsin, 38 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin, qalan hissədə müraciət əsassız olduğundan təmin edilməsin.

2. 79 saylı İmişli dairə seçki komissiyasının 6 noyabr 2015-ci il tarixli 38/109 saylı qərarı qismən, 38 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinə münasibətdə ləğv edilsin, qalan hissədə dəyişdirilmədən saxlanılsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov